# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA ELMİN İNKİŞAFI FONDU

Bakı şəhəri 21 sentyabr 2012-ci il

## Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun humanitar və ictimai elmlər sahəsində məqsədli qrantların verilməsi üzrə 2012-ci il üçün 1-ci beynəlxalq xarakterli "Şuşa qrantı" müsabiqəsinin (EİF/MQM-1-Şuşa-2012-1(5)) nəticələri haqqında

## E L A N

Qarabağla, onun simvolu olan Şuşa ilə bağlı elmi tədqiqatları stimullaşdırmaq və beynəlxalq səviyyədə araşdırmaları təmin etmək məqsədilə Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondu (bundan sonra - Elmin İnkişafı Fondu) 2012-ci ildə **"ŞUŞA QRANTI"** təsis etmişdir.

Elmin İnkişafı Fondu Azərbaycançılıq ideologiyası prioritetinə uyğun olaraq bütövlükdə Qarabağın tarixinin, bu diyarın qədim və rəngarəng qeyri-maddi və maddi mədəni irsinin, memarlığının, arxeologiyasının, iqtisadiyyatının, fauna və florasının, təbii sərvətlərinin, mədəniyyət tarixinin, etnoqrafiyasının, ədəbiyyatşünaslıq, dilçilik, sənətşünaslıq, incəsənət sahələrinin və s. kompleks şəkildə elmi əsaslarla dərindən tədqiq olunmasının dəstəklənməsi məqsədi ilə humanitar və ictimai elmlər sahəsində fundamental-tətbiqi xarakterli elmi-tədqiqat proqram və layihələri üzrə 2012-ci il üçün 1-ci beynəlxalq xarakterli "Şuşa qrantı" məqsədli müsabiqəsini (EİF/MQM-1-Şuşa-2012-1(5)) 8 may 2012-ci il tarixində "Dağlıq Qarabağ Bölgəsinin Azərbaycanlı İcması" İctimai Birliyinin mərkəzi ofisində keçirilən mətbuat konfransında elan etmiş, müvafiq məlumat Fondun internet səhifəsində və kütləvi informasiya vasitələrində işıqlandırılmışdır.

Müsabiqənin adının seçilməsinin, həmçinin müsabiqə haqqında elanın göstərilən tarixdə və adıçəkilən məkanda verilməsinin xüsusi rəmzi mənası olmuşdur. 20 il əvvəl məhz 8 may tarixində Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunmuş Şuşa Azərbaycanın ən qədim yaşayış məskənlərindən biri, nadir memarlıq nümunələrinin toplandığı şəhər-qala, Qarabağın tacı, mədəniyyət beşiyidir. Qəhrəmanlar, sərkərdələr, ədiblər, şairlər, bəstəkarlar, xanəndələr və alimlər yetirmiş Qarabağın zəngin və şanlı tarixi vardır.

Qrant layihələrinin qəbulu üçün müddəti 10 may – 29 iyun 2012-ci il tarixləri

müəyyənləşdirilmişdir. Bu müddət ərzində Elmin İnkişafı Fondunun icraçı direksiyası məsləhət seminarları təşkil etmiş, telefon və elektron-poçt vasitəsilə olan müraciətlərə cavab vermiş, ortaya çıxan suallara aydınlıq gətirmişdir.

Yuxarıda göstərilən müddət ərzində müsabiqəyə 9 layihə daxil olmuş və Azərbaycan Respublikası Müəllif Hüquqları Agentliyində qeydiyyatdan keçirilmişdir. 2 iyul – 31 avqust 2012-ci il tarixlərini əhatə edən müddətdə bu layihələrin texniki və elmi ekspertizası işi təşkil olunmuşdur. 3 layihə texniki ekspertiza mərhələsindən keçməmiş, 6 layihə isə elmi ekspertizaya buraxılmışdır. Ekspertiza işinə Elmin İnkişafı Fondunun daimi ekspertləri və müstəqil ekspertlər cəlb olunmuşlar.

Elmin İnkişafı Fondunun icraçı direksiyası, daimi və müstəqil ekspertlər təqdim olunmuş layihələrin cari müsabiqənin elmi prioritetlərinə uyğunluq dərəcəsini müəyyənləşdirmiş, layihələrin elmi səviyyəsini, onların yerinə yetirilməsi imkanlarını və potensialını, gözlənilən elmi nəticələrini, mümkün tətbiq və istifadə ehtimalını ekspertiza qaydalarına uyğun olaraq xüsusi sistem üzrə qiymətləndirmiş, həmçinin maliyyələşdirilmənin məqsədəuyğunluğu və həcmi barədə Elmin İnkişafı Fondunun Himayədarlar Şurası üçün rəylər, arayışlar və tövsiyələr hazırlamışdır.

Yekun sənədlər toplusuna Elmin İnkişafı Fondunun Himayədarlar Şurasının 2012-ci il 18 sentyabr tarixli iclasında ətraflı baxılmış, ekspertiza qaydalarına uyğun olaraq layihələrin yekun toplanmış ballara görə sıralanmış siyahısı və maliyyələşdirilmə həcmi və icra müddəti barədə tövsiyələr müzakirə olunmuşdur.

2012-ci il üçün 1-ci "Şuşa qrantı" müsabiqəsi çərçivəsində 5 qalib layihə müəyyənləşdirilmiş, Elmin İnkişafı Fondunun qərarının verilməsi üçün dəstəklənən (maliyyələşdiriləcək) layihələrin siyahısı (əlavə olunur) və hər qalib layihə üzrə maliyyələşdirilmə həcmi və icra müddəti Elmin İnkişafı Fondunun Himayədarlar Şurası ilə razılaşdırılmaqla Elmin İnkişafı Fondunun 2012-ci il 20 sentyabr tarixli qərarı ilə təsdiq olunmuşdur. Bu müsabiqə üzrə qalib layihələrin ümumi maliyyələşdirilmə həcmi 170 000 manat olmuşdur.

Müsabiqələrin keçirilməsi qaydalarına uyğun olaraq Elmin İnkişafı Fondunun icraçı direksiyası ilə layihə rəhbəri arasında layihənin yerinə yetirilməsi barədə lazımi sənədlər toplusu hazırlanmaqla müvafiq müqavilə bağlanılacaq və Azərbaycan Respublikası Ədliyyə Nazirliyində qeydiyyatdan keçiriləcəkdir.

Elmin İnkişafı Fondu 2012-ci il üçün "Şuşa qrantı" müsabiqəsinin iştirakçılarına və ekspertlərə minnətdarlığını bildirir və qalib layihə rəhbərləri və icraçılarına uğurlar diləyir.

***Elmin İnkişafı Fondunun icraçı direksiyası***